# Dövlətçiliyimizin, müstəqilliyimizin rəmzi...

Dövlət bayrağımız suverenliyimizin rəmzidir. Özünütəsdiq simvolu olan bayraq qürur və güvənc yeri sayılır. Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı olan üçrəngli bayrağımız xalqımızın azadlıq məfkurəsinə, milli-mənəvi dəyərlərə və ümumbəşəri ideyalara sadiqliyini nümayiş etdirir.

Üçrəngli bayrağımızda: göy - türkçülük, qırmızı - suverenlik, yaşıl - İslam rəmzidir.

Ulu öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra üçrəngli bayrağımız ümumxalq referendumu ilə qəbul edilən Konstitusiyada da öz əksini tapdı.

Ümummilli lider Heydər Əliyevin müstəqil Azərbaycanda siyasi xəttini uğurla davam etdirən Prezident İlham Əliyevin milli ideyalara bağlılığı üçrəngli bayrağımıza münasibətdə də açıq-aydın görünür. "Azərbaycan Respublikasının Dövlət bayrağı haqqında Əsasnamə"yə edilmiş əlavə və dəyişikliklərin təsdiqlənməsi, "Azərbaycan Respublikası Dövlət bayrağının istifadəsi qaydaları haqqında" Qanunun imzalanması da yüksək ehtiramın ifadəsidir.

Prezident İlham Əliyevin 17 noyabr 2009-cu ildə imzaladığı Sərəncamla Azərbaycanın üçrəngli bayrağının ilk dəfə rəsmi ucaldığı 9 noyabr (1918-ci il) tarixi Azərbaycan Respublikasının Dövlət Bayrağı Günü kimi təsis edildi. 2010-cu ildən etibarən noyabrın 9-u respublikamızda Dövlət Bayrağı Günü kimi qeyd olunur. 2010-cu il sentyabrın 1-də Bakıda dünyanın ən uca bayraqlarından birinin dalğalandığı Dövlət Bayrağı Meydanının təntənəli açılışı Ali Baş Komandanın bir daha dövlət rəmzlərimizə sevgisinin bariz nümunəsidir. Dövlətimizin başçısının həmin mərasimdə səsləndirdiyi tarixi nitqində deyilir: "Bizim bayrağımız qürur mənbəyimizdir. Bizim bayrağımız canımızdır, ürəyimizdir. Bu gün Azərbaycanın hər bir yerində Dövlət bayrağı dalğalanır. Azərbaycan ərazi bütövlüyünü bərpa edəndən sonra milli Dövlət bayrağımız bu gün hələ də işğal altında olan torpaqlarda qaldırılacaqdır. Bizim bayrağımız Dağlıq Qarabağda, Xankəndidə, Şuşada dalğalanacaqdır. O günü biz hər an öz işimizlə yaxınlaşdırmalıyıq və yaxınlaşdırırıq. Eşq olsun, Azərbaycan bayrağına! Yaşasın, Azərbaycan!"



Bəli, bu gün üçrəngli şanlı bayrağımız Qarabağda dalğalanır. 2020-ci ildə Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə şanlı Azərbaycan Ordusu işğal altındakı torpaqlarımızı düşmən tapdağından qurtararaq ərazi bütövlüyümüzü bərpa edib. Azərbaycan əsgəri bayrağımızı 28 il həsrətində olduğumuz Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı, Şuşa şəhərlərində, Hadrut, Mincivan, Ağbənd qəsəbələrində, Suqovuşanda, işğaldan azad olunmuş 200-dən çox kənddə ucaldıb. Dövlət Bayrağı Gününə ən böyük müjdə isə 2020-ci ildə verildi. Prezident İlham Əliyev 2020-ci il noyabrın 8-də - Dövlət Bayrağı Günü ərəfəsində üçrəngli bayrağımızın Şuşada ucaldıldığını xalqımıza bəyan etdi. Bundan sonra yüz minlərlə insan əllərində Azərbaycan Bayrağı küçələrə çıxaraq Şuşa Zəfərinin sevincini paylaşdı. Şuşanın 28 ildən sonra düşmən tapdağından qurtarılması Bayraq Günü ilə bir vaxta təsadüf etdi. Şuşaya bayrağımızın sancıldığı 2020-ci ilin 8 noyabr günü Azərbaycan tarixinə əbədi həkk olunacaq. Bu şanlı səhifəni tariximizə Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev yazdı.

Bayrağımız qanımızı rənginə qatdığımız, xalqımızın parlayan ulduzu, göylərdə dalğalanan nazlı, şanlı hilallı bəzəyidir. O, altında doğulub, kölgəsində öldüyümüz uca dəyərimizdir. O olmadan nə azadlıqdan, nə müstəqillikdən, nə də dövlət və millət kimi varlığımızdan söz etmək mümkündür.

Yüz ilə yaxın bir müddətdir ki, Üçrəngli dövlət bayrağımız insan--la-rı-mız üçün müqəddəs ideal rəmzinə çevrilib. Mövcudluğunun 18 ayı döv-ründə (1918-ci ilin 9 noyabrı) ən istəkli bir varlıq kimi sevilib, əziz-lə-nib, adına və hüsnünə şeirlər yazılıb, mahnılar bəstələnib.

Dövlət bayrağı respublikamızın dövlət qurumlarının və diplomatik nümayəndəliklərinin binaları üzərində ucalır, mühüm beynəlxalq tədbirlər, mötəbər mərasimlər və məclislərlə yanaşı, irimiqyaslı ictimai-siyasi toplantılarda, mədəni tədbirlərdə və idman yarışlarında qaldırılaraq milli birliyi təcəssüm etdirir.

**İlahə RƏHİMOVA.**

# Səyyar qəbullar

Hər bir problem aid olduğu idarə və müəssisə, qurumlar tərəfindən həll olunur, onlara həm psixoloji, həm də müəyyən mənada maddi dəstəklər olunur və insanlar öz həyatlarına davam edirlər.

Məlum olduğu kimi, rayonumuzda ayrı-ayrı qəsəbə və kəndlərdə səyyar qəbulların keçirilməsi artıq ənənə şəklini almışdır. Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev rayonumuzun qəsəbə və kəndlərində sakinlərlə görüşlər keçirir və onların qarşılaşdıqları problemlərin həll olunmasını diqqət mərkəzində saxlayır.

Rayonumuzun sakinlərinin rifah halının yaxşılaşdırılması və ictimai həyatın hərtərəfli inkişafı, mədəni-məişət qayğıları, onların problemləri rayon rəhbərliyinin həmişə maraq dairəsindədir. Elə buna görə də hər ay Qəbələ Rayon İcra Hakimiyyəti başçısı Səbuhi Abdullayev tərəfindən ayrı-ayrı qəsəbə və kənd əhalisi ilə səyyar qəbullar təşkil olunur.

Noyabr ayında rayonumuzun Tikanlı və Çarxana kəndlərində səyyar qəbullar keçirilmişdir. Bu qəbullar zamanı Səbuhi Abdullayev kənd sakinlərini qəbul etmiş, onların müraciətlərini dinləmişdir. Hüquq mühafizə orqanlarının, Qəbələ rayon İH yanında ictimai şura nümayəndəliyinin, xidmət sahələrinin rəhbərləri və kənd ictimaiyyətinin nümayəndələrinin iştirak etdiyi belə səyyar qəbullar zamanı icra hakimiyyətinin başçısı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə sosial-iqtisadi sahədə qazanılan nailiyyətlərdən, həmin işlərin həyata keçirilməsində göstərilən xüsusi diqqət və qayğıdan, eləcə də, Qəbələ rayonunda aparılan tikinti-quruculuq işlərindən, əhalinin sosial problemlərinin həlli istiqamətində həyata keçirilən tədbirlərdən ətraflı danışılır. Səyyar qəbullar zamanı kənd sakinləri tərəfindən qaldırılan məsələlərin həll edilməsi istiqamətində RİH başçısı tərəfindən aidiyyəti üzrə müvafiq tapşırıq və tövsiyələr verilir.



Tikanlı kəndi.





Çarxana kəndi.



# Yeni Azərbaycan Partiyasının təsis edilməsinin 30 illiyinə həsr olunmuş tədbir keçirilmişdir

4 noyabr 2022-ci il tarixində Qəbələ Rayon İcra Hakimiyyətinin və YAP Qəbələ rayon təşkilatının təşkilatçılığı ilə Yeni Azərbaycan Partiyasının yaranmasının 30 illiyi ilə əlaqədar tədbir keçirilmişdir. Tədbir iştirakçıları öncə ümummilli lider Heydər Əliyevin abidəsini və torpaqlarımızın azadlığı uğrunda şəhadətə yüksəlmiş şəhidlərin xatirəsinə ucaldılmış Şəhidlər Xiyabanı kompleksini ziyarət etmiş, xatirələrini ehtiramla yad edərək önünə gül dəstələri düzmüşlər. Qəbələ Mədəniyyət Mərkəzində davam edən tədbirdə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilmiş, ulu öndər Heydər Əliyevin, torpaqlarımızın azadlığı uğrunda canından keçərək şəhadətə ucalmış şəhidlərimizin xatirəsi 1 dəqiqəlik sükutla yad edilmiş və Partiyanin keçdiyi şərəfli yolu əks etdirən film nümayiş etdirilmişdir. Tədbirdə çıxış edən Yeni Azərbaycan Partiyası Qəbələ Rayon Təşkilatının sədri Abil Ağasəfov təməli ulu öndər Heydər Əliyev tərəfindən qoyulan Yeni Azərbaycan Partiyasının, o cümlədən partiyanın Qəbələ rayon təşkilatının yaranmasından, partiyanın 30 ildə keçdiyi uğurlu inkişaf yolundan danışmışdır. Qəbələ Rayon İcra Hakimiyyətinin Başçısı Səbuhi Abdullayev çıxış edərək ümummilli lider Heydər Əliyevin banisi olduğu Yeni Azərbaycan Partiyasının yarandığı gündən böyük ictimai dəyərlərin daşıyıcısı olduğunu, ölkə prezidenti, Partiyanın sədri cənab İlham Əliyevin yorulmaz, fədakar fəaliyyəti sayəsində ölkə iqtisadiyyatının inkişaf etdiyini, dayanıqlı əsaslara söykənən xalq-iqtidar birliyinin yarandığını qeyd etmişdir. Çıxış edən Yeni Azərbaycan Partiyası İdarə Heyətinin üzvü, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi sədrinin müavini Aynur xanım Sofiyeva və Azərbaycan Respublikası Milli Məclisinin Deputatı Aqiyə xanım Naxçıvanlı bu gün sıralarında 800 minə yaxın insanı birləşdirən Yeni Azərbaycan Partiyasının ümumxalq partiyasına çevrildiyini vurğulamış, partiyanın fəaliyyəti və həyata keçirdiyi uğurlu siyasətdən bəhs etmişlər. Tədbirdə həmçinin YAP Qəbələ rayon təşkilatının fəalları, şəhid valideyni və müharibə iştirakçıları çıxış etmişlər. Sonda bir qrup YAP fəallarına rayon icra hakimiyyətinin Fəxri Fərman və partiya sıralarına yeni qəbul olunmuş bir qrup şəxsə partiyanın üzvlük vəsiqəsi təqdim edilmişdir.

